*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 avqust 2018-ci il № 61 (2277) Qiyməti 25 qəpik


# Azərbaycan və Tacikistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər



*Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon avqustun 10-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun rəsmi qarşılanma mərasimi olub. Rəsmi qarşılanma mərasimi başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun təkbətək görüşü keçirilib. Görüşdə ikitərəfli əlaqələrin gücləndirilməsi istiqamətində bir çox məsələlər müzakirə edilib və sənədlər imzalanıb.*

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mətbuata bəyanatlarla çıxış ediblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan və Azərbaycan prezidentlərinin Birgə Bəyanatını ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin bütün sahələrini əhatə edən olduqca fundamental vacib siyasi sənəd kimi dəyərləndirib. Ölkə Prezidenti qeyd edib ki, bu sənəd ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyəsinin təsdiqidir. "Bu sənəddə iqtisadi əməkdaşlıq, nəqliyyat, humanitar əməkdaşlıq, təhlükəsizliyin möhkəmləndirilməsi sahələrində mühüm məsələlərin əsas prioritetləri əksini tapıb. Sənəddə ölkələrimizi narahat edən vacib məsələlər də əks olunub".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata verdiyi bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı mövqeyinə görə Tacikistana minnətdarlığını bildirib. "Tacikistana Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı mövqeyinə görə də minnətdarlığımı bildirmək istərdim. Bəyanatın mətnində yazılıb ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə, ATƏT-in qərarlarına uyğun şəkildə həll olunmalıdır. Bütün Azərbaycan xalqı adından belə ədalətli mövqeyə görə minnətdarlıq bildirmək istərdim. Bu, həm dost mövqeyidir, həm də ədalətli mövqedir. Çünki uzun illərdir ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan əraziləri Ermənistanın işğalı altındadır və Ermənistan BMT-nin Təhlükəsizlik Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər bu kimi aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələrini yerinə yetirmir. Vaxtilə onların hamısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərar və qətnamələr qəbul ediblər və bu zaman belə bir nöqteyi-nəzərdən çıxış ediblər ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır".

Tacikistan Respublikasının Prezidenti Emomeli Rəhmon mətbuata bəyanatla çıxışı zamanı Dağlıq Qarabağ münaqişəsinə toxunaraq bildirib ki, bütün məsələlər üzrə bizim mövqelərimiz üst-üstə düşür və bu da həmin istiqamətdə əməkdaşlıq və qarşılıqlı fəaliyyət üçün yaxşı təməldir. "Biz Cənubi Qafqazda cərəyan edən proseslər üzrə fikir mübadiləsi də apardıq. Biz mövcud ziddiyyətlərin və münaqişələrin hamılıqla tanınan beynəlxalq normalar və meyarlar çərçivəsində sülh yolu ilə həlli prinsipinə qəti sadiqliyimizi ifadə edirik. Bizim əqidəmizə görə, siyasi-diplomatik dialoq Dağlıq Qarabağ kimi çətin problemin həllində ən konstruktiv yoldur".

**AZƏRTAC-ın materialları əsasında**

# “Dəniz Kuboku” müsabiqəsinin bağlanışına həsr olunmuş təntənəli mərasim keçirilib



*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Beynəlxalq Ordu Oyunları 2018" çərçivəsində "Dəniz Kuboku" müsabiqəsinin bağlanışına həsr olunmuş təntənəli mərasim keçirilib. Müdafiə Nazirliyinin rəsmiləri, diplomatik korpusların nümayəndələri, müsabiqə iştirakçıları, Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin hərbi qulluqçuları, media əməkdaşlarının iştirak etdiyi mərasimdə "Azərbaycan fanfarası" səsləndirilib, Azərbaycan Respublikasının Dövlət himni ifa edilib.*



Tədbirin aparıcısı polkovnik Abdulla Qurbani bildirib ki, Rusiya Federasiyası Müdafiə Nazirliyinin təşəbbüsü ilə 2015-ci ildə bünövrəsi qoyulan Beynəlxalq Ordu Oyunlarında iştirak edən ölkələrin və komandaların sayı ildən-ilə artmaqdadır. Azərbaycan Ordusunun hərbi qulluqçuları ilk gündən başlayaraq bu yarışlarda iştirak edir və uğurları ilə xalqımızı sevindirirlər. Bu il hərbçilərimiz beş növ üzrə müsabiqədə öz peşəkarlıq və məharətlərini nümayiş etdirərək, yenə də fərqlənmişlər.

İkinci ildir ki, Azərbaycan "Dəniz Kuboku" müsabiqəsinə ev sahibliyi edir və Müdafiə Nazirliyi yarışların şəffaf və yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradır. Ötən ildə olduğu kimi, bu il də "Dəniz Kuboku" dostluq, qardaşlıq, qarşılıqlı anlaşma şəraitində keçmiş və bütün iştirakçı dövlətlərin böyük marağına səbəb olmuşdur.

Mərasimdə nəzərə çatdırılıb ki, Xəzər dənizi, sahilində yaşayan bütün xalqlar üçün ümumi bir dəstərxandır və öz sərvətlərini Xəzərsahili xalqlardan əsirgəmir. Odur ki, bu xalqlar da öz növbəsində Xəzəri sevməli, qorumalı və təhlükəsizliyini təmin etməlidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Xəzər haqqında müdrik kəlama çevrilmiş bir fikrini tamaşaçılarla bölüşən aparıcı "Xəzəryanı ölkələr arasında mövcud olan dostluq, əməkdaşlıq münasibətləri Xəzərdə sülhün, təhlükəsizliyin qarantıdır", - deyib.

Rusiya Xəzər Flotiliyasının, İran İslam Respublikası, Qazaxıstan və Azərbaycan Respublikaları Hərbi Dəniz Qüvvələri komandalarının iştirak etdiyi "Dəniz Kuboku" müsabiqəsinin əsas mükafatı - kubok və iştirakçı dövlətlərin bayraqları alqışlar altında səhnəyə gətirilib, üç mərhələ, altı epizodda keçirilən yarışların qısa xronikası videoçarx vasitəsilə təqdim edilib, beynəlxalq hakimlər briqadasının son qərarı mərasim iştirakçılarına çatdırılıb.

"Dəniz Kuboku" müsabiqəsində Azərbaycan Respublikası Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov, Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin komandanı birinci dərəcəli kapitan Zaur Hümmətov və Rusiya Federasiyası Xəzər dənizi Flotiliyasının nümayəndəsi ikinci dərəcəli kapitan Dmitriy Nikolayeviç Korovin üçüncü yeri tutmuş Azərbaycan Respublikası və İran İslam Respublikası Hərbi Dəniz Qüvvələrinin, ikinci yeri tutmuş Qazaxıstan Respublikası Hərbi Dəniz Qüvvələrinin və birinci yeri tutmuş Rusiya Federasiyası Xəzər dənizi Flotiliyasının komandalarına və üzvlərinə kubok, medal və diplomlar təqdim ediblər.



Ənənəyə uyğun olaraq müsabiqə qalibinin təmsil olunduğu ölkənin dövlət himni ifa edilib.

"Dəniz Kuboku" müsabiqəsi təşkilat komitəsinin sədri general-leytenant Nizam Osmanov yarışların uğurla başa çatması münasibəti ilə müsabiqə iştirakçılarını, xüsusilə qalib komandaları Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından təbrik edib. O, bildirib ki, yarışların obyektiv keçirilməsi üçün dəniz poliqonlarında, təlim-məşq komplekslərində hər cür şərait yaradılmış və fərəhli haldır ki, iştirakçılar döyüş meydanlarında deyil, yarış meydanlarında öz güclərini sınamışlar. Bu müsabiqədə ən böyük nailiyyət isə Xəzəryanı ölkələrin hərbi dənizçilərinin bir-birini yaxından tanıması, qarşılıqlı etimadın, hərbi əməkdaşlığın möhkəmləndirilməsi, təcrübə mübadiləsi, dostluq və qardaşlıq mühitinin yaranması olmuşdur. Heç şübhəsiz, hərbi gəmilərin Azərbaycana səfəri zamanı şəxsi heyət ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti, ləziz mətbəxi və adət-ənənələri ilə yaxından tanış olmaq imkanı qazanmışlar.

Təşkilat Komitəsinin sədri əminliyini bildirib ki, müsabiqə iştirakçıları odlar diyarı Azərbaycandan, günü-gündən çiçəklənən doğma Bakımızdan bu diyara yenidən qayıtmaq arzusu ilə xoş təəssüratlarla ayrılacaqlar. Azərbaycanın qapıları ölkəmizə xoş məramla, xoş niyyətlə gələn hər kəsin üzünə açıqdır.



"Dəniz Kuboku" müsabiqəsi bağlı elan edilib, yarışlarda xüsusilə fərqlənmiş komanda üzvlərinin iştirakı ilə "Beynəlxalq Ordu Oyunları-2018" yarışlarının və "Dəniz Kuboku" müsabiqəsinin bayraqları endirilib.

Matros geyimli məktəbli Selcanın söylədiyi məşhur rus şairi Sergey Yesenenin "Əlvida, Bakı" şeiri alqışlarla qarşılanıb.

Sonda tədbirin ssenari müəllifi və quruluşçu rejissoru Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü A.Qurbani Azərbaycan xalqının bir ənənəsini xatırladıb: "Azərbaycanda qonağı şirin şərbətlə, duz-çörəklə qarşılayar, qədəmlərinə xalılar döşəyər, əlvan güllər səpər, yola salanda isə arxasınca su atarlar. Su müqəddəsdir, su təmizlikdir, su saflıqdır".

"Dəniz Kuboku" iştirakçılarının arxasınca rəmzi olaraq su atılıb ki, onlar öz ölkələrinə, xidmət yerlərinə, doğma ailələrinə sağ-salamat qayıtsınlar, yolları nurlu, uğurlu olsun.

Bağlanış mərasimində Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblı, Hərbi Dəniz Qüvvələrinin orkestri, Əməkdar artist Cahangir Qurbanov və digər ifaçılar hərbi marş, vətənpərvərlik mahnı və rəqslərini məharətlə ifa ediblər.

Bağlanış mərasimindən sonra iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, beynəlxalq hakimlər briqadasının üzvləri, yerli və xarici media nümayəndələrinin iştirakı ilə "Dəniz kuboku" müsabiqəsinin yekunlarına həsr olunmuş mətbuat konfransı keçirilib.

Mətbuat konfransında müsabiqənin yüksək səviyyədə təşkili və keçirilməsi üçün yaradılan şərait, texniki dəstək qruplarının fəaliyyəti, hakimlər kollegiyasının işi və müsabiqənin mərhələ və epizodlarının yerinə yetirilməsi üzrə iştirakçı ölkələrin komandalarının göstəriciləri barədə ətraflı məlumat verilib, suallar cavablandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

Mehdi Hüseynzadə - 100

# Parlaq qəhrəmanlıq nümunəsi olan "Mixaylo"nun 100 illik yubileyi Azərbaycan Ordusunda geniş qeyd edilir




*İkinci Dünya müharibəsi dövründə antifaşist müqavimət hərəkatının görkəmli nümayəndəsi, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin anadan olmasının 100 illiyi Azərbaycan Ordusunun birlik, birləşmə və hərbi hissələrində geniş şəkildə qeyd edilir.*

Qəhrəmanın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 23 iyun 2018-ci il tarixli Sərəncamının icrası ilə əlaqədar Müdafiə Nazirliyinin Təhsil və Mədəniyyət nazirlikləri ilə birlikdə tədbirlər planı hazırlanmış və yubiley tədbirlərinə start verilmişdir.

Cəbhəyanı bölgədə və Gəncə şəhərindəki hərbi hissələrdən birində keçirilən xatirə mərasimində əfsanəvi kəşfiyyatçı Mehdi Hüseynzadənin həyat və döyüş yolu barədə ətraflı məlumat verilib, vaxtilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə igid həmyerlimizin xatirəsinin əbədiləşdirilməsi üçün görülən işlərdən söhbət açılıb.

Layihənin müəllifi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani 1973-cü il mayın 9-da Bakıda Mehdi Hüseynzadənin abidəsinin açılışına həsr olunmuş mərasimdə unudulmaz Heydər Əliyevin fəxarət hissi ilə dediklərini bir daha şəxsi heyətə xatırladaraq bildirib ki, Mehdi Hüseynzadə hərarətli qəlbinin çağırışı ilə ölkəmizin müdafiəçilərinin sıralarına qoşuldu. Stalinqrad ətrafındakı vuruşmada ağır yaralanan Mehdi əsir düşdü. Lakin nə tikanlı məftillər, nə Hitler həbs düşərgəsinin azğın keşikçiləri cəsur döyüşçünün iradəsini qıra bilmədi. Doğma torpaqdan uzaqlarda, Adriatik dənizi sahillərində həmyerlimiz onlarla cəsarətli əməliyyatlar aparmış, kəşfiyyat-təxribat qrupuna rəhbərlik etmişdir. Yuqoslaviya-İtaliya müqavimət hərəkatı sıralarında vuruşarkən azərbaycanlı Mehdi Hüseynzadə özünü "Mixaylo" adlandırmışdır. Faşistləri vahiməyə salan bu mübariz ad altında Mehdi Hüseynzadə tarixə əbədi daxil olmuş, onunla çiyin-çiyinə vuruşmuş insanların qəlbində məskən salmışdır. Bu ad müasirlərinin və gələcək nəsillərin hafizəsindən heç vaxt silinməyəcəkdir.

Abdulla Qurbani daha sonra nəzərə çatdırıb ki, Ümummilli Liderimizin vaxtında olduğu kimi bu gün də dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev hərb tariximizin öyrənilməsinə, görkəmli sərkərdələrimizin həyat və döyüş yollarının təbliğinə, müharibələrdə qəhrəmanlıqları ilə Azərbaycan xalqına başucalığı gətirmiş qəhrəmanlarımızın xatirələrinin əbədiləşdirilməsinə xüsusi önəm verir. Son illərdə Cəmşid Naxçıvanskinin anadan olmasının 120, Ələğa Şıxlinskinin 150, Səməd bəy Mehmandarovun 160 illik yubileylərinin keçirilməsi haqqında Prezidentin sərəncamları uğurla yerinə yetirilib.

Mehdi Hüseynzadənin 100 illiyinin dövlət səviyyəsində qeyd olunması haqqında Prezidentin sərəncamı da həm xalqımız, həm də ordumuzun şəxsi heyəti tərəfindən rəğbətlə qarşılanıb. Bu, hərb tariximizə, Vətən uğrunda canından keçən qəhrəman oğulların xatirəsinə hörmət və ehtiramın bariz nümunəsidir. Həmin sərəncamda qeyd olunur ki, Mehdi Hüseynzadə 1941-1945-ci illər müharibəsində faşizmə qarşı mübarizədə apardığı çoxsaylı uğurlu kəşfiyyat əməliyyatları və nümayiş etdirdiyi misilsiz hərbi şücaətləri ilə böyük şöhrət qazanmış, Azərbaycan xalqının zəngin tarixi hünər salnaməsinə şanlı səhifələr yazmışdır. Yüksək əxlaqi keyfiyyətlərə malik cəsur kəşfiyyatçının rəşadət dolu şərəfli həyat yolu bu gün Vətənimizin sərhədlərini layiqincə qoruyan və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan mətin Azərbaycan əsgəri üçün parlaq qəhrəmanlıq nümunəsidir.



Böyük Vətən müharibəsinin veteranı Tofiq Paşa oğlu Hüseynov cəbhə xatirələrini danışıb, hərbi qulluqçuları "Mixaylo" kimi igid oğullardan nümunə götürməyə və xalqımızın qəhrəmanlıq ənənələrindən bəhrələnməyə çağırıb, əmin olduğunu bildirib ki, Həzilər, Mehdilər, Gəraylar, Qafurlar yetirən Vətən torpağı heç vaxt işğalla barışa bilməz və barışmayacaq. Azərbaycanın üçrəngli bayrağı Talış zirvəsində, Lələtəpədə, Qızılqayada, Günnütdə dalğalandığı kimi, Xankəndidə, Şuşada, Laçında və işğal altında olan digər torpaqlarımızda da dalğalanacaq və həmin bayraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Bakıda keçirilən hərbi paradda dediyi kimi, Azadlıq meydanına gətirilərək Qələbə paradımızda nümayiş etdiriləcəkdir.



Tədbirlərdə Mehdi Hüseynzadənin ədəbi və bədii yaradıcılığı haqqında da iştirakçılara geniş məlumat verilib.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi Mehdi Hüseynzadənin şeirləri əsasında ədəbi-musiqili kompozisiya təqdim edib, şairlərimizin ona həsr etdiyi şeirlər səsləndirilib.

Həmin gün Gəncə Qarnizonu Zabitlər Evinin səyyar təşviqat dəstəsi "Uzaq sahillərdə" və "Təxəllüsü "Mixaylo"" filmlərini nümayiş etdirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Tank bölmələri intensiv məşğələlərə başlayıb

Yeni tədris dövründə qoşunların hazırlıq planına əsasən, tank hərbi hissə və bölmələri şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi və hərtərəfli praktiki vərdişlərinin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü fəaliyyət üzrə intensiv məşğələlərə başlayıblar.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*10 avqust 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 94 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Ayqeovit kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Məzəm, Qızılhacılı, Cəfərli, Bala Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Kəngərli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan Ordusunun mövqelərində partlayış baş verməsi ilə bağlı Ermənistan tərəfinin yaydığı xəbər təxribatdır

*Erməni tərəfinin yaydığı məlumat həqiqətə uyğun deyil, yalandır və düşmənin növbəti təxribatıdır. Azərbaycan Ordusunun bölmələrinin döyüş mövqelərində heç bir partlayış baş verməyib.*

Bunu AZƏRTAC-ın sorğusuna cavab olaraq Azərbaycan Respublikasının Müdafiə Nazirliyindən bildiriblər.

Qeyd olunub ki, yayılan məlumat avqustun 6-da Ermənistan silahlı qüvvələrinin mövqelərinin birində, blindajda partlayışın baş verməsi barədə tərəfimizdən verilən məlumata düşmənin uğursuz cavab cəhdidir.

Bölmələrimiz əməliyyat şəraitinə tam nəzarət edir.

AZƏRBAYCAN ORDUSU

# Azərbaycanın Milli Qəhrəmanı Məzahir Rüstəmovun xatirəsinə həsr olunmuş tədbirlər keçirilib



*Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Gədəbəy rayonunda Azərbaycanın Milli Qəhrəmanı Məzahir Rüstəmovun xatirəsinə həsr olunmuş tədbirlər keçirilib. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, xatirə günü tədbirlərinə şəhid zabitin Gədəbəy şəhərinin mərkəzində ucaldılmış abidəsi qarşısında keçirilən anım mərasimi ilə start verilib.*

Müdafiə Nazirliyinin rəsmiləri, qəhrəmanın valideynləri, vaxtilə xidmət etdiyi hərbi hissənin, eləcə də rayon ictimaiyyətinin nümayəndələri şəhidin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Layihənin müəllifi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani belə tədbirlərin Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsinə ehtiram əlaməti olmaqla yanaşı, gənclərin vətənpərvərlik nümunələri, qəhrəmanlıq ənənələri ruhunda tərbiyəsində, ordumuz üçün gələcək layiqli əsgərlərin yetişdirilməsində xüsusi əhəmiyyət daşıdığını və Müdafiə Nazirliyi rəhbərliyinin bu işə xüsusi önəm verdiyini vurğulayıb.

Qeyd olunub ki, Məzahir Rüstəmov 1960-cı ilin baharında Bakıda doğulub. İndiki Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirib, dədə-baba yurdu olan Gədəbəydə vəziyyət gərginləşəndə, Başkənd erməni quldurlarının şeytan yuvasına çevriləndə (bu kənd 1920-ci ildə sovet hakimiyyəti rəhbərliyinin ikili siyasəti nəticəsində ermənilərə bağışlanmışdı və Azərbaycanın ərazisi olmasına baxmayaraq Ermənistanın xəritəsinə salınmış, anklav kimi rəsmiləşdirilmişdi) Dövlət Mətbuat Komitəsində tutduğu məsul vəzifədən imtina edərək Azərbaycan Ordusuna könüllü yazılıb və Gədəbəy rayonuna yollanıb. Bu, o vaxtlar idi ki, Gədəbəy rayonunun da sərhəd kəndləri intensiv atəşə tutulur, dinc əhali vəhşicəsinə qətlə yetirilirdi, Başkənd isə kabusa çevrilmişdi.

Professor İzzət Rüstəmovun oğlunun vəzifəsini buraxıb könüllü cəbhəyə getməsi çoxlarına təəccüblü görünsə də, o, həqiqətən ön səngərdə, qanlı döyüşlərdə idi və Vətənə övladlıq borcunu nümunəvi xidməti ilə ödəyirdi.

Nəzərə çatdırılıb ki, 1992-ci il avqustun 6-da düşmənlər tank və digər zirehli texnikalar, canlı qüvvə ilə qəflətən Mutudərə istiqamətində hücuma keçəndə bölük komandirinin müavini leytenant Məzahir Rüstəmov bölüyün əsgərləri ilə birlikdə döyüş növbəsində idi. Onlar mühasirəyə düşsələr də son gülləyə, son nəfəsədək mübarizə aparıblar. Erməni quldurlarına əsir düşməmək üçün gənc zabit sonuncu qumbaranı sinəsinə sıxaraq həm özünü, həm də onu əsir götürmək istəyən bir neçə düşməni məhv edib. Azərbaycan Ordusunun əks-hücumu nəticəsində Məzahirin və onun silahdaşlarının intiqamı tezliklə alınıb. Başkənd quldurlardan tamamilə azad edilib, bir çox strateji əhəmiyyətli zirvələr ələ keçirilib, Gədəbəyin sərhədyanı kəndlərinin təhlükəsizliyi təmin edilib. Məzahir Rüstəmovun nəşi avqustun 9-da Bakıya gətirilib və izdihamın iştirakı ilə Şəhidlər xiyabanında son mənzilə yola salınıb.

Abdulla Qurbani bildirib ki, qəhrəman döyüşçü ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Onun adı əbədiləşdirilərək Bakıda təhsil aldığı orta məktəbə və küçələrdən birinə verilib, yaşadığı binaya xatirə lövhəsi vurulub, Gədəbəydə abidəsi ucaldılıb. Məzahirin ailəsi həmişə dövlətimizin və Müdafiə Nazirliyi rəhbərliyinin diqqət mərkəzindədir. Məzahir döyüşə gedərkən altı aylığında olan qızı Təhminə də artıq boya-başa çatıb, ailə həyatı qurub və bir övladı var. O, dövlət qulluğunda çalışır.

Milli Qəhrəmanın atası professor İzzət Rüstəmov və anası Rəfiqə xanım bütün şəhid ailələrinə, Qarabağ müharibəsinin veteranlarına, döyüşlərdə sağlamlığını itirənlərə dövlət qayğısının yüksək səviyyədə olduğunu qeyd edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya, Müdafiə Nazirliyi rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Məzahir Rüstəmovun döyüşçü dostu Maarif Abbasov, xidmət etdiyi hərbi hissənin zabiti Eldəniz Nəsirov və başqaları çıxış edərək Milli Qəhrəmanın şücaətindən danışıb və şəhidlərimizin intiqamını almaq üçün Ali Baş Komandanın əmrlərinə hazır olduqlarını bəyan ediblər.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin ifasında təqdim edilən "Bir bayraq altında cəm olsun hamı, cənnət Qarabağa səfərimiz var!" ədəbi-bədii kompozisiya tədbir iştirakçılarının işğal altında olan şəhər və rayonlarımızın da tezliklə azad ediləcəyinə əminliklərini daha da artırıb.



Növbəti tədbir Milli Qəhrəmanın 26 il öncə şəhidlik zirvəsinə ucaldığı Mutudərə kəndi yaxınlığındakı yüksəklikdə keçirilib.

Bir il öncə şəhid qəhrəmanın valideynləri bu bölgədə Vətən müdafiəçiləri ilə görüşərkən bu yerdə xatirə abidəsinin ucaldılmasının həm ailə üzvləri, həm mutudərəlilər üçün təsəlli, həm də buradan keçib zirvələrə döyüş növbəsinə gedən gənc əsgərlər üçün nümunə ola biləcəyini bildirmişdilər. Artıq şəhid ailəsinin bu arzusu da reallaşıb.



Abidənin üzərindəki bəyaz örtük götürülüb. Əsgərlər yaylım atəşi ilə qəhrəmanlara ehtiramlarını bildiriblər. Mutudərə ağsaqqalları, Məzahir Rüstəmovun silahdaşları, bölgənin keşiyində ayıq-sayıq dayanan, düşmən təxribatlarının qarşısını mərdliklə alan igid döyüşçülər çıxış edərək Azərbaycan Ordusunun güc və qüdrətindən danışıb, istənilən döyüş əmrini yerinə yetirməyə hər an hazır və qadir olduqlarını bildiriblər.

Milli Qəhrəmanın anası Rəfiqə xanım hər bir Vətən əsgərinin simasında Məzahiri gördüyünü deyib, Vətən keşiyində duran oğullara xidmətlərini layiqincə başa vuraraq evlərinə sağ-salamat qayıtmalarını arzulayıb.

Professor İzzət Rüstəmov şəhid ailəsinin bu arzusunu reallaşdırdığına görə bir neçə gün öncə bölgəyə səfər edən, döyüşçülərlə yanaşı, yerli sakinlərlə də görüşən, onların problemləri ilə maraqlanan Müdafiə naziri general-polkovnik Zakir Həsənova və nazirliyin digər rəhbər heyətinə dərin minnətdarlığını bildirib.

Gəncə Qarnizonu Zabitlər Evinin səyyar bədii təşviqat dəstəsi qəhrəmanlıq, vətənpərvərlik mövzusunda ədəbi-musiqili kompozisiya təqdim edib.

Milli Qəhrəman Məzahir Rüstəmovun xatirə günündə bölgədəki hərbi hissələrdə, dayaq məntəqələrində, döyüş mövqelərində anım tədbirləri, görüşlər keçirilib, qəhrəman haqqında çəkilmiş sənədli filmlərin nümayişi və kitabların təqdimatı olub.

# "Yubileylər silsiləsi" layihəsi çərçivəsində növbəti videoçarx hazırlanıb

*Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Mirzə Şəfi Vazeh adına Yasamal rayon Mərkəzi Kitabxanasında (MKS) "Yubileylər silsiləsi" layihəsi çərçivəsində əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin 100 illik yubileyinə həsr olunmuş "Mehdi Hüseynzadə-100" adlı videoçarx hazırlanıb.*

İdarədən AZƏRTAC-a bildirilib ki, videoçarxda Azərbaycanın əfsanəvi qəhrəmanının həyatı və keçdiyi döyüş yolu haqqında məlumatlar verilib. İmran Qasımov və Həsən Seyidbəylinin "Uzaq sahillərdə" , Şəmistan Nəzirlinin "Əfsanəvi Mixaylo" kitabları haqqında Azərbaycan və rus dillərində anonslar öz əksini tapıb, arxiv sənədləri və fotolar toplanılıb.

Layihənin ideya müəllifi Yasamal rayon MKS-nin direktoru Lətifə Məmmədovadır.

Qeyd edək ki, 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizmə qarşı mübarizədə apardığı çoxsaylı uğurlu kəşfiyyat əməliyyatları və misilsiz hərbi şücaəti ilə böyük şöhrət qazanmış, Azərbaycan xalqının zəngin tarixi hünər salnaməsinə şanlı səhifələr yazan Mehdi Hüseynzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 23 iyun 2018-ci il tarixli Sərəncamına əsasən Yasamal rayon MKS-də bir sıra tədbirlər keçirilib.



## “Dəniz Kuboku-2018” müsabiqəsində hava hədəflərinə artilleriya atışları yerinə yetirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Dəniz Kuboku-2018" müsabiqəsinin son mərhələsində Azərbaycan, Rusiya, Qazaxıstan və İran hərbi gəmilərinin ekipajları hava hədəflərinə artilleriya atışları yerinə yetiriblər.

## “Dəniz Kuboku-2018” müsabiqəsində artilleriya atəşləri icra olunub

*"Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsində iştirak edən ölkələrin hərbi dənizçiləri Xəzər dənizinin döyüş hazırlığlı poliqonunda "Artilleriya atəşlərinin yerinə yetirilməsi üzrə yarış" mərhələsinin "Üzən minaya artilleriya atışı" tapşırığını yerinə yetiriblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bu mərhələdə gəmilərə hərəkətdə ikən üzən mina hədəfini artilleriya atəşi ilə məhv edilməsi tapşırılıb. Atışlar artilleriya qurğularından 200 metr məsafədən yerinə yetirilib. Gəmilərin vaxtında gəlməsinə və hədəflərin məhv edilməsinə görə beynəlxalq hakimlər briqadası qiymətləndirmə aparıb.

Yarışın nəticələrinə görə Rusiya komandası 40 balla birinci, Azərbaycan 38 balla ikinci, Qazaxıstan 36 balla üçüncü, İran dənizçiləri isə 20 balla dördüncü yerlərdə qərarlaşıblar.

Yarışların növbəti mərhələsinin keçirilməsi planlaşdırılır.

# “Vətəndaşlıq borcumu yerinə yetirirəm”

*"Vətən üçün hər birimiz bir əsgərik" devizi ilə keçirilən kütləvi vətənpərvərlik tədbirlərini xatırlayırıq. Digər tədbirlər kimi, bu tədbir də istər yeniyetmələrin, gənclərin, Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, istərsə də ordu ictimaiyyət münasibətlərinin daha da möhkəmləndirilməsində mühüm rol oynadı.*

Həmin tədbirdə istər Böyük Vətən müharibəsi veteranları, istərsə də Dağlıq Qarabağ müharibəsi iştirakçılarını görən, onların söhbətlərini, tövsiyələrini dinləyən gənclərin vətənpərvərlik duyğuları kifayət qədər etibarlı səviyyədə formalaşacaqdı.

Belə tədbirlərdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov da yaxından iştirak edir, veteran sözünün gənclərə dolğunluğu ilə çatdırılmasını özünə vəzifə borcu bilir; vətənsevər olmayanın Vətən, torpaq, dövlət, dövlətçilik haqqında tövsiyələri dinlənilməz, yadda qalmaz. Cəlil Xəlilov belə tədbirlərdə təkcə öz adından danışmır. "Vətəni sevin" - demir, hadisə və faktlar əsasında danışdıqları deyir Vətəni sevin, yəni həyat faktları söhbətin, tövsiyələrin əsası kimi təqdim edilir ki, bu da daha təsirli olur.

Respublikamızda veteranlara dövlət qayğısı kifayət qədər əhatəlidir, həssasdır. Bu qayğının yerlərdə həyata keçirilməsində təşkilatın rolu böyükdür. Təşkilat, müəyyən mənada, dövlətlə veteranlar arasında koordinasiyaedici missiyanı yerinə yetirir.

El kəlamı, atalar sözləri həmişə hər bir vətənsevərin həyat, yaşam fəlsəfəsi olub. "Allahsız yerdə otur, böyüksüz yerdə oturma" kəlamı belə kəlamlardandır. Veteranların iştirak etdiyi tədbirlər daha nüfuzedici olur. Yeniyetmə və gənclər üçün örnək olan belə ömürlər Vətən üçün yaşanıldığından həmin tədbirin də məhz Vətən üçün təşkil edildiyinə kimsə gümanla yanaşa bilməz. Cəlil Xəlilov belə bir potensialın Vətənin rifahına, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə istiqamətləndirməsinə səy göstərir.

Cəlil Xəlilov Simferopol Ali Hərbi Siyasi Məktəbini bitirib. Pamirdən başlayıb xidmət yolu. Müxtəlif hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edib. Hərbi anda sədaqətlə xidmət edib. Düşüncələrində - Vətən, dövlət, dövlətçilik. Xidmətində - Vətənə, dövlətə, dövlətçiliyə sədaqət. Bu xarakter vətənsevərlikdən rişələnir. Və o bu xarakteri ilə layiqli bir vətəndaş ömrü yaşayır. Vətən sevgisini görüş-görüş, söhbət-söhbət yeniyetmələrin, gənclərin yaşam fəlsəfəsinə hopdurur. Tədbirlərdə çıxışları həm olmuşların mahiyyətini tövsiyələrə çevirmə qabiliyyətinə, həm də milli mentalitetə söykənir; fakt və hadisəni azərbaycançılığı şərtləndirən ağsaqqallıqla təmasda, bağlılıqla təqdim edir, Əfqanıstan müharibəsində gördüklərini, müşahidə etdiklərini milli-mənəvi dəyərlərimiz fonunda, bu və ya digər mətləbin aşılanmasında vasitə bilir...

Onun taleyində Qarabağ müharibəsinin də izləri var...

Cəlil Xəlilov ədəbiyyatımıza, mədəniyyətimizə, incəsənətimizə bələd olan ziyalılarımızdandır. Böyük Nizami Gəncəvinin, Füzulinin, Nəsiminin, ... də, Səməd Vurğunun, Hüseyn Arifin, Bəxtiyar Vahabzadənin, Rəsul Rzanın da yaradıcılığına yaxşı bələddir. Böyük Nizaminin "Elmsiz, ey dünya, nədir dəyərin?" - kəlamının işığında Tacikistan Dövlət Universitetinin hüquq fakültəsində təhsil alıb. Ali təhsilli hüquqşünasdır. Bu, təhsil xətrinə təhsil deyil. Bu,



aldığı təhsili təmsil etdiyi təşkilatın fəaliyyətinin dövlətçiliklə üzvi bağlılığını təmin etmə məramıdır...

Horadizdə keçirilən kütləvi vətənpərvərlik tədbirində çıxışında Cəlil Xəlilov demişdi: "Zaman fərdlər üçün də, ictimaiyyət üçün də xalq üçün, Vətən üçün, dövlət üçün yaşama fürsətidir. Bu fürsəti vətənpərvərliklə gerçəkləşdirə bilərsiniz. Hərbi xidmət hərbi and deməkdir. Vətəndaş üçün belə and Vətən andıdır. Mətni tərtib olunmayan bu andı hər kəs Vətənə sevgisiylə yazır. Bu andı möhtəşəm yazın, bu anda sədaqətlə yaşayın. Bu, təkcə mənim deyil, təmsil etdiyim təşkilatın üzvlərinin hamısının tövsiyəsidir..." Bu çıxışı bir tədbir miqyasında vətənpərvərlik dərsi bilmişdik. Belə dərslərin sayı kifayət qədər çoxdur...

Ehtiyatda olan polkovnik Cəlil Xəlilov dünyəvi biliklərin araşdırılmasının, bu biliklərin öz əksini gənc nəslin həyat fəlsəfəsində tapmasının cəfakeşlərindəndir. Qədim yunan filosofu Axilles deyirdi: "Hər şey axır, hər şey dəyişir". Milli mentalitetə bələdliyin, onu qorumağın, yaşatmağın milli mənlik şüurunun gələcək üçün önəmi həmişə böyük olub. Bu baxımdan Cəlil Xəlilov məlum nəzəri bilikləri azərbaycançılıq ideologiyası əsasında təhlil edib, ümumiləşdirib və nəticə etibarilə mütəxəssislərin diqqətini cəlb edən "Milli təhlükəsizliyin təmin edilməsində milli mənlik şüurunun rolu" mövzusunda dissertasiya yazıb, uğurla müdafiə edib, siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. Bu elmi araşdırmaların tezisləri təbii ki, gənclərlə, hərbi qulluqçularla söhbətlərdə istinad edilməli mənbədir, bu mənbə təbii ki, ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında gərəklidir.

Milli Məclisin deputatı, ehtiyatda olan general-mayor Vladimir Timaşenko da, filologiya elmləri doktoru Bədirxan Başkeçidli də ömür payını Vətən üçün, Vətənin gənclərinin yüksək vətənpərvərlik duyğularıyla formalaşması üçün yaşayanların, bunu ömür düsturu bilənlərin sırasında olan Cəlil Xəlilovu yüksək mənəvi dəyərlərə malik vətəndaş kimi dəyərləndirirlər; Hərbçi hərbçi xarakteri haqqında fikir bildirir, alim alim haqqında; hərbçi və alim ömrü veteran ömrünün şaxələridir, hər biri ayrılıqda və vəhdətdə dəyərlidir.

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani onun veteran hərəkatında fəaliyyətini, xidmətlərini yüksək dəyərləndirir.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının fəaliyyəti, müəyyən mənada, zaman anlamında dünənlə sabahın arasında mənəvi-tarixi əlaqələndirmə missiyasıdır. Sabahlar üçün yaşamaq dünənləri unutmamaqdır. Dünənlər tariximizdir. Olmuşların sintezindən ən gərəklisini seçirsən və o gərəklilərin bazasında daha gərəklilərin icraçısı olursan. Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı təşkilat kimi, sədr müavini vətəndaş kimi məhz bu tezisin icraçısıdır. Təşkilatın sədr müavini bu təşkilatın fəaliyyətini böyük məktəb hesab edənlərdəndir. Müxtəlif tədbirlərdə, o cümlədən beynəlxalq tədbirlərdə Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasəti dəstəkləyən, bu siyasətin gərəkli təbliğatçısı olan Cəlil Malik oğlu gənclərin vətənpərvərlik duyğularının daha yüksək səviyyədə formalaşdırılmasının cəfakeşidir. Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən kütləvi vətənpərvərlik tədbirində iştirakı, çıxışının mahiyyəti Cəlil Xəlilovun timsalında veteranların mövqeyini əks etdirir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov ehtiyatda olan polkovnik Cəlil Xəlilova yubileyi münasibətilə təbrik ünvanlayıb, onu “Azərbaycan Ordusunun 100 illiyi” (1918-2018) yubiley medalı və qiymətli hədiyyə ilə mükafatlandırıb, veteran hərəkatında xidmətlərini qeyd edib. Cəlil Xəlilovun bu səmimi təbrikə görə Müdafiə nazirinə təşəkkürünü bildirməklə yanaşı, "Vətəndaşlıq borcumu yerinə yetirmişəm..." - deyəcəyinə zərrəcə şübhəmiz yoxdu.

Fəaliyyəti dövlətin gənclər siyasətinin tərkib hissəsi olan təşkilatın sədr müavini İsveçrənin Cenevrə şəhərində sülh əsgərləri Beynəlxalq Assosiasiyasının təşkilatçılığı ilə keçirilən "Sülh Əsgərlərinin Beynəlxalq Günü" tədbirində də çıxış edib. Onun məzmunlu məruzəsi maraqla dinlənilib. Həmin tədbirdə Cəlil Xəlilov Nobel Sülh mükafatı yubiley medalı ilə təltif olunub. O, bu medalı təşkilatın fəaliyyətinə verilən dəyər hesab edir.

...“Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı bundan sonra da dövlətə, dövlətçiliyə sədaqətlə xidmət edəcək”, - ehtiyatda olan polkovnik Cəlil Xəlilov bu amalla yaşayır...

**"Azərbaycan Ordusu"**

# "Artilleriya atəşinin ustaları" müsabiqəsinin bağlanış mərasimi keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Beynəlxalq Ordu Oyunları-2018" yarışları çərçivəsində Qazaxıstanın Otar hərbi bazasında keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin final mərhələsi keçirilib.

Final yarışlarının nəticələrinə görə Azərbaycan artilleriyaçıları müsabiqədə üçüncü yerə layiq görülüblər.

"Beynəlxalq Ordu Oyunları-2018" yarışları çərçivəsində Qazaxıstanın Otar hərbi bazasında "Artilleriya atəşinin ustaları" müsabiqəsi başa çatdıqdan sonra təltifetmə və



bağlanış mərasimi keçirilib.

Mərasimdən sonra "Artilleriya atəşinin ustaları" müsabiqəsi bağlı elan edilib.

# "Səhra mətbəxi" və "Snayper həddi" müsabiqələri başa çatıb

*"Beynəlxalq Ordu Oyunları-2018" yarışları çərçivəsində keçirilən "Səhra mətbəxi-2018" müsabiqəsinin sonuncu mərhələsi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarışların ümumi nəticələrinə görə Rusiya komandası birinci, Çin komandası ikinci, Qazaxıstan komandası üçüncü, Azərbaycan komandası isə dördüncü yeri tutub.

"Snayper həddi" müsabiqəsinin isə bağlanış mərasimi keçirilib.

"Beynəlxalq Ordu Oyunları-2018" çərçivəsində Belarusun Brest təlim poliqonunda keçirilən "Snayper həddi" müsabiqəsinin təltifetmə və bağlanış mərasimi keçirilib.

Mərasimdən sonra "Snayper həddi" müsabiqəsi bağlı elan edilib.

# "Konflikt jurnalistikası məktəbi"nin ikinci mərhələsi başladı

*Müdafiə Nazirliyinin tərəfdaşlığı ilə "Milli təhlükəsizlik və müdafiə tələblərinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərdə hərbi sahəyə aid məxfi məlumatların kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə düzgün, dövlətçilik baxımından yayılmasını təmin etmək, hərbi qulluqçuların və kütləvi informasiya vasitələri nümayəndələrinin təcrübə və vərdişlərini formalaşdırmaqla hüquqi-maarifləndirmə biliklərini artırmaq" məqsədilə "Dinc Dünya" Araşdırma Mərkəzinin icra etdiyi "Konflikt jurnalistikası məktəbi"nin ikinci mərhələsi başladı.*



Təsdiq edilmiş təlim-tədris planına əsasən, düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsindəyik. Hərbi hissənin zabiti polkovnik Babək Səmidli təlim müddətində təhlükəsizlik qaydaları haqqında məsləhətlərini verdikdən sonra təlimalanların hərbi hissələrin birində yerləşdirilməsi prosesi həyata keçirildi.

Təlimin ikinci günündə ön xətt bölmələrinin birində döyüş faktlarından yazan jurnalistlərə auditoriya təlimi keçirildi. "Konflikt jurnalistikası məktəbi"nin layihə rəhbərinin köməkçisi Teymur Zahidoğlu qaynar obyektlərə ezam olunan jurnalistlərin əməl etməli olduğu etik normalardan və fərdi situasiyalarda davranış qaydalarından geniş məlumat verdi. "İlk öncə aktiv döyüşlər gedən əraziyə ezam olunan jurnalistlərin xarakterik xüsusiyyətləri redaksiya rəhbərliyi tərəfindən müstəsna şəkildə qiymətləndirilərək fərdi keyfiyyətləri nəzərə alınmalıdır. Müxbir qəti olaraq bilməlidir ki, əldə etdiyi informasiyanı fərqli düşüncəsi olan auditoriyaya təqdim edir. Ona görə də öz mövqeyindən çıxış etməməli və informasiyanı olduğu kimi çatdırmalıdır. Həmçinin, hadisə yerində işləyənlərə mane olmamalı, onlara təsir etməməli, hərbi sirrin yayılmamasına ciddi riayət etməlidir. Jurnalist birinci ezam olunan qaynar nöqtəyə getməzdən öncə özlüyündə bir neçə sualı cavablandırmalıdır: Qoşunların təmas xəttində nələrlə rastlaşacam? İntensiv atəşə məruz qaldıqda hansı mövqedə təhlükəsiz dayanaraq çəkiliş aparacam? Düşmənə hücum zamanı hansı qərarı qəbul edəcəm? Psixoloji cəhətdən bu və ya digər suallara hazır olan müxbir düşmənlə təmas xəttindən informasiya toplayanda çətinlik çəkmir. Nəticədə hazırlıqlı jurnalist oxucularına dəqiq, qərəzsiz və dolğun məlumat verir".

Polkovnik Babək Səmidli jurnalistlərə dövlət və hərbi sirrin qorunması, informasiyanın ictimailəşdirilməsi məsələsinə toxunaraq bildirdi ki, dövlətin hərbi, xarici-siyasi, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olan məlumatlar mühafizə edilən və yayılması dövlətimizin təhlükəsizliyinə ziyan vuran məlumatlardır. "Hərbi sahədə dövlət sirri təşkil edən məlumatların yayılması qanunla qadağandır. Bu məlumatlar yayılarsa, düşmən kəşfiyyatı onların köməyi ilə bir sıra məxfi məlumatları çətinlik çəkmədən toplamaq imkanı əldə edir. Hərbi texnikaların hərəkət istiqaməti, dislokasiya yeri, şəxsi heyətin və silah-sursatın sayı, hərbi təyinatlı yeni növ maddələrin xüsusiyyətləri və texnologiyaları haqqında informasiyaları yaymaq qanunla qadağandır. Beləliklə, dövlət sirrinin mühafizəsi hərbi hissə komandirlərinin, qərargah rəislərinin, idarə və müəssisə rəhbərlərinin əsas fəaliyyət istiqamətlərindən biridir. Dövlət sirri təşkil edən məlumatların mühafizəsinin təşkilinə görə məsuliyyət onların üzərinə düşür. Bu səbəbdən mətbuat üçün hazırlanan materiallar qabaqcadan yuxarı komandanlıq ilə razılaşdırılır. Dövlət təhlükəsizliyinin təmin olunmasında hər bir vətəndaşın rolu vacibdir. Ona görə də hər bir vətəndaşın, əsasən də cəbhə bölgəsində yaşayanların dövlət sirri təşkil edən məlumatları yayan, həmin məlumatları xarici dövlətlərə, xarici təşkilatlara və ya onların nümayəndələrinə verən və yaxud vermək məqsədilə oğurlayan, toplayan və ya saxlayan şəxslər barədə yaxınlıqdakı hərbi hissələrə, yerli hüquq-mühafizə və təhlükəsizlik orqanlarına məlumat verməsi müqəddəs borcudur".

Təlimin üçüncü günü iştirakçılar döyüş imitasiyası şəraitində düşmən texnikasının pusquya salınması və canlı qüvvəsinin əsir götürülməsi zamanı peşə fəaliyyətini yerinə yetirdilər. Jurnalistlərə yaranan situasiyada hansı mövqedə dayanması və düzgün müşahidənin aparılması öyrədildi. Sonra təlimalanlar zirehli texnikalarla və silahlarla tanış oldular, eyni zamanda onlara hərbi hissənin zabitlərinin köməkliyi ilə simulasiya qurğularında fərdi olaraq idarəetmə, zirehli texnika ilə davranma, hərbi texnikanın içindən-üstündən çəkiliş aparma, döyüş vaxtı texnikadan yararlanmanın qaydaları və informasiya əldə etmə üsulları izah edildi.

Praktiki hərəkətlər yerinə yetirildikdən sonra təlim taktiki sinifdə nəzəri məşğələlərin keçirilməsi ilə davam etdi. Hərbi hissənin zabiti polkovnik-leytenant Ramil Həsənov "İnformasiya texnologiyaları əsrində aparılan müharibələr" mövzusunda mühazirə oxudu. "Məhz virtual müharibələr yeni termin - "hibrid müharibə" anlayışının meydana gəlməsinə səbəb olub. Son dövrlərdə beynəlxalq müharibələrdə baş verən gərgin hadisələr, xüsusilə Ukrayna və Suriya ətrafında yaranmış böhranla əlaqədar "hibrid müharibə" termini siyasətçilərin nitqlərində, konseptual sənədlərdə öz əksini tapıb. Aparılan hibrid müharibələr tərəflərin informativ-psixoloji qarşıdurması olmaqla, informasiya məkanında başlayır, daha sonra ictimai rəyə psixoloji təsir göstərməklə davam edir. Bunun ardınca siyasi aksiyalar, xaos, "rəngli" inqilablar baş verir. Əgər bütün bunlar nəticə verməsə, Ukraynada olduğu kimi, özündə "hibrid müharibə"nin əlamətlərini ehtiva edən vətəndaş müharibəsi başlayır. Analitiklər gələcək müharibələrin məhz "hibrid müharibə" olacağını proqnozlaşdırırlar. "Hibrid müharibə"də nəzərə alınacaq tədbirlər bunlardan ibarətdir: Belə müharibədə xalqın dəstəyi tam olaraq nəzərə alınmalıdır; düşmən əsla zəif görünməməlidir; güclü kəşfiyyat şəbəkəsi qurulmalıdır; mülkilər zərər görməməlidir; mediadan aktiv şəkildə




istifadə edilməlidir".

Kapitan Xəzər Rzayev hərbi sahədən yazan jurnalistlərin diqqətinə ordumuzda mövcud olan artilleriya silahları, onların istifadə qaydaları, taktiki-texniki xüsusiyyətləri haqqında məlumat çatdırdı.

Gündəlik təlim planına əsasən sonda təlimalanların dəyirmi masa ətrafında diskussiyası aparıldı.

**Baş leytenant Ruslan HƏSƏNZADƏ,
Leytenant Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Hərbi etikanın əsasları. Hərbi qulluqçular arasında qarşılıqlı münasibətlər, bölmədə sağlam əhval-ruhiyyənin yaranmasında kollektivin rolu.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin nizamnamələrindən istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**
**1. Hərbi etikanın əsasları.**
**2. Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları.**

*Hərbi etikanın əsasları*

Hərbi xidmət insanlardan yüksək intizam, icraçılıq, dəqiqlik, təmkinlilik, dözümlülük və çeviklik tələb edən fəaliyyət sahəsidir. Hərbi qulluqçuların xidməti fəaliyyət və ondan kənar vəziyyət şəraitində davranış, müvafiq hərəkət və hadisələrə düzgün reaksiya vermə qabiliyyətini formalaşdıran əxlaqi normalar öz əksini hüquqi sənədlərdə, qanunlarda, nizamnamələrdə, təlimatlarda, komandirlərin əmrlərində tapır. Buna görə əxlaqi tələblər qanun qüvvəsinə minir. Məsələn, qorxaqlıq cəmiyyətdə insanın psixoloji durumunun keyfiyyət göstəricisi kimi yalnız mənəvi baxımdan pislənirsə, hərbi kollektivdə aşkar edilən qorxaqlıq isə çətin məqamda döyüş tapşırığının uğurla yerinə yetirilməsinə mane olan zərərli və təhlükəli bir amil kimi aradan qaldırılmalıdır.

Odur ki, hərbi qulluqçuların qarşısında həmişə hərbi-etik normalardan irəli gələn yüksək tələblər qoyulur. Bununla belə, əxlaq qanunlara, nizamnamələrə kor-koranə tabe etdirilmir. Əksinə, Azərbaycan Ordusunda hərbi xidməti tənzimləyən bütün hüquqi sənədlər, o cümlədən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət, İntizam, Qarnizon və Qarovul Xidmətləri və Sıra nizamnamələri Vətən qarşısında borcun yerinə yetirilməsində könüllülüyün, şüurluluğun, təşəbbüskarlığın vacibliyini vurğulayır.

Hərbi xidmətə çağırılan hər kəs Vətənimiz Azərbaycana sadiq olacağına, hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirəcəyinə, komandirlərin və rəislərin əmrlərinə sözsüz tabe olacağına təntənəli surətdə and içir.

Hərbi borcunu daim nümunəvi yerinə yetirən hər bir bacarıqlı döyüşçü yüksək mənəviyyata malikdir. Hərbi borcu həm də ləyaqətlə yerinə yetirmək hərbçinin şərəf işidir. Öz vəzifəsinə layiqincə yanaşmaq hərbi qulluqçulardan bəzən böyük çətinlikləri dəf etməyi tələb edir. Hərbi kollektivin uğuru onun hər bir üzvünün fəaliyyətindən asılıdır. Əgər hamı öz vəzifəsinə hərbi andın, nizamnamələrin tələblərinə uyğun yanaşırsa, deməli nailiyyət labüddür.

Hərbi etikanın vacib normalarından biri hərbi kollektivdə böyüyə hörmət etmək, subardinasiya qaydalarına riayət etməkdir. Vəzifəcə və rütbəcə kiçik olanlar rəisləri nizamnaməyə uyğun olaraq əsgəri qaydada birinci salamlayır və onlara rütbələri ilə müraciət edirlər.

Hərbi qulluqçular öz aralarında da nəzakətli olmalı, bir-birinə "siz" deyə müraciət etməlidirlər. Bu qayda rəislərə də, onların tabeliyində olanlara da eyni dərəcədə şamil edilir.

Azərbaycan zabiti və əsgəri adını daşıyan hər kəs öz yüksək mədəniyyəti, nəzakəti, təvazökarlığı ilə nümunə olmalıdır. İctimai yerlərdə, nəqliyyatda hərbi qulluqçu rütbəcə böyük olan zabiti, rəisi salamlamalı və ona hörmət etməlidir.

Hərbçilər mülki əhaliyə qarşı da nəzakətli davranmalı, Azərbaycan zabiti və ya əsgəri adını uca tutmalı, bu şərəfli ada ləkə gətirməməlidirlər. Bədbəxt hadisələr zamanı biganə qalmamalı və bacardıqları köməyi göstərməlidirlər. Hər bir döyüşçü səliqəli geyinməli, əlini cibində saxlamamalı, rəisinin və ya komandirinin yanında qeyri-etik hərəkətlərə yol verməməlidir.

Hərbi qulluqçunun mənəvi simasını göstərən cəhətlərdən biri də onun danışığıdır. Ünsiyyət zamanı aydın, səlis, inandırıcı sözlərə üstünlük vermək lazımdır.

*Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları*

Hərbi xidmətə çağırılan hər bir kəs ordu kollektivinin bir üzvünə çevrilir və silahdaşları ilə nizamnamələrin tənzimlədiyi ictimai və qarşılıqlı münasibətlərə girir.

Hərbi nizamnamələr ordunun xüsusiyyətini və qarşısında duran vəzifələri nəzərə almaqla hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin prinsiplərini müəyyən edir.

Vahid rəhbərlik, və hərbi-etik normalar kollektivdə sağlam və işgüzar iqlimin yaradılmasında aparıcı rol oynayan komandir və rəislərin tabeliyindəkilərə qarşı kifayət qədər tələbkar olmalarını, sonuncuların isə verilmiş əmr və tapşırıqları sözsüz və dəqiq yerinə yetirmələrini, yuxarıda qeyd edildiyi kimi, rütbəcə böyüklərə hörmət göstərmələrini, hərbi salam və nəzakət qaydalarına ciddi əməl etmələrini nəzərdə tutur.

Bir rəhbər və hərbçi-pedaqoq kimi rəis yalnız sözlə, komanda və əmrlə deyil, işə və insana münasibəti ilə də tabeliyindəkilərə təsir göstərir. Tələbkarlıqla yanaşı, zabit həm də qayğıkeş və ədalətli olmalı, hərbi qulluqçular arasında qarşılıqlı inam və səmimiliyin, döyüş yoldaşlığının bərqərar olunmasına çalışmalıdır. Qayğı və inamın mənəvi-psixoloji amil kimi mühüm əhəmiyyəti ondadır ki, döyüşçülərdə nəinki öz komandirlərinə etimad və hörmət hissi aşılayır, eyni zamanda öz hərbi borcunu ləyaqətlə yerinə yetirməyə həvəs yaradır.

Hərbi qulluqçular arasında kollektivçilik prinsipi nizamnamələrdə geniş yer tutur. Əsgər, çavuş, gizir və zabitlər arasında kollektivçilik, döyüş yoldaşlığı həm əxlaqi, həm də hüquqi norma kimi təzahür edir. Nizamnamələr hərbçilərdə döyüş yoldaşlığını uca tutmağı, sözdə və əməldə silahdaşlarına kömək etməyi, onları nalayiq hərəkətlərdən çəkindirməyi tərbiyə edir.

Əsgər və matroslar arasında münasibətlər döyüşçülərin hərəkət və davranışına, onlarda bir çox şəxsi mənəvi keyfiyyət və vərdişlərin formalaşmasına bilavasitə və ciddi təsir göstərir. Ona görə tabeliyindəkilərə müvəffəqiyyətlə rəhbərlik etmək, hərbi kollektivi möhkəmləndirmək üçün həmin münasibətləri hər bir zabit və çavuş yaxşı bilməlidir.

Hər bir hərbi kollektivdə təlim və döyüş tapşırığını birgə yerinə yetirərkən, ictimai işlərdə, məişətdə əsgər və matroslar arasında, adətən, qarşılıqlı rəğbət və bağlılıq, dostluq və qardaşlıq hissləri yaranır, döyüşçülər vaxt və qüvvə əsirgəmədən hərbi texnikanın sirlərini öyrənməkdə, çətin məqamlarda bir-birinə kömək edir, bir-birinin uğuruna sevinirlər.

Bununla belə, sıravi döyüşçülərin arasında nizamnamə tələblərinin pozulması halları da müşahidə edilir. Bu, adətən nizam-intizamın vəziyyəti ilə, zabit və çavuşların öz vəzifələrinə kifayət qədər ciddi yanaşmamaları ilə, əsgər və matroslar arasında xidmət müddətinin fərqi ilə, onların orduyaqədərki həyat tərzi və vərdişləri ilə izah olunur. Əsgər və matroslar arasında göstərilən mənfi hallar komandir və rəislərdən tərbiyə işinin gücləndirilməsini, neqativ halları doğuran səbəblərin vaxtında aradan qaldırılmasını tələb edir.

Hərbi kollektivlərdə bəzən bir neçə hərbi qulluqçunun birləşdiyi kiçik qrupların yaranması hallarına da təsadüf edilir, bu qruplar ümumi maraq, fəaliyyət və hərbi xidmətə münasibət zəminində ortaya çıxırlar. Hətta ən mehriban kollektivlərdə belə iki və bir neçə nəfərdən ibarət belə qruplar yaranır. Çox vaxt bu qruplar öz silahdaşlarına müsbət təsir göstərir, hərbi kollektivi möhkəmləndirən amil rolunu oynayırlar. Ancaq bəzən özünü kollektivə qarşı qoyan qruplar da əmələ gələ bilər. Belə qruplara qarşı mövqeni düzgün müəyyənləşdirməklə, həm obyektiv amilləri, həm də də daxili-psixoloji motivləri üzə çıxarmaq olar.

Ona görə komandirlər və şəxsi heyətlə iş üzrə zabitlər üçün kollektivlərdə mövcud olan qarşılıqlı münasibətlərin konkret təzahürlərini bilmək, onları təhlil etmək, mənfi halların yaranması və inkişafının səbəblərini vaxtında aşkara çıxarmaq, nizamnamələrin tələblərinə uyğun qarşılıqlı münasibətlərin düzgün vasitə və yollarını seçmək vacibdir.

Hərbi-etik davranış xüsusiyyətləri hərbi xidmət nizamnamələrində öz əksini geniş şəkildə tapmışdır və həmin normalar zabitlərimiz üçün qarşılıqlı münasibətlərin tənzimlənməsinə, ordu kollektivində möhkəm hərbi intizamın təşəkkül tapmasına xidmət edən yararlı istifadə mənbəyidir.

**Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi**

# Xəbərlər: hadisələr, faktlar

## PKK terrorçuları İraqın şimalından Türkiyə ərazisini atəşə tutub



PKK terrorçuları İraqın şimalından Türkiyənin Hakkari vilayətinin Çukurca rayonunda yerləşən Güven dağı ərazisindəki hərbi məntəqəsini atəşə tutub.

Nəticədə Türkiyə Silahlı Qüvvələrinin 6 hərbçisi yaralanıb. Onlar helikopterlə Hakkariyə gətirilib. Əsgərlərdən biri şəhid olub.

Bölgədə təhlükəsizlik tədbirləri gücləndirilib.

## HƏMAS təşkilatı İsraillə 5 illik atəşkəsə razılıq verib



Fələstinin əsas siyasi qüvvələrindən biri olan və Qəzza sektorunda faktiki olaraq administrativ idarəetməni həyata keçirən HƏMAS təşkilatı sahilyanı anklavın blokadasının azaldılması və əsirlərin dəyişdirilməsi məsələsinin həlli müqabilində İsraillə 5 il müddətinə atəşkəs sazişi imzalamağa razılıq verib.

Hərəkat yaxın vaxtlarda bu qərar barədə Misir hökumətini və BMT-nin Yaxın Şərq sülh prosesi üzrə xüsusi əlaqələndiricisi Nikolay Mladenovu məlumatlandırmaq niyyətindədir.

Mənbənin verdiyi məlumata görə, atəşkəs haqqında saziş sektorun inkişafı üçün lazımi məhsulların daxil olması üçün Misirlə sərhəddə yerləşən "Rəfah" buraxılış məntəqəsinin açılmasını, həmçinin balıq ovu üçün sahil zonasının 12 dəniz milinədək genişləndirilməsini nəzərdə tutur.

HƏMAS hərəkatının siyasi bürosunun sədr müavini Saleh əl-Arurinin başçılıq etdiyi nümayəndə heyətinin avqustun 8-də Qahirəyə səfər edəcəyi gözlənilir.

## İsrailin Qəzza sektoruna hava zərbələri nəticəsində 3 fələstinli həlak olub



İsrail ordusunun Qəzza sektoruna endirdiyi hava zərbələri nəticəsində 3 fələstinli həlak olub.

Yerli Səhiyyə Nazirliyinin mətbuat katibi Əşrəf əl-Kudranın sözlərinə görə, həlak olanların arasında 23 yaşlı qadın və onun yaşyarımlıq körpəsi də var. Kudra, həmçinin hücum nəticəsində 12 nəfərin yaralandığını deyib.

İsrail tərəfi isə öz növbəsində HƏMAS hərəkatının raket zərbələrinə qarşı anklavda yerləşən 140 strateji hərbi obyekti bombardman etdiyini bildirib.

## Əfqanıstan: "Taliban" Qəzni şəhəri istiqamətində hücuma keçib



"Taliban" hərəkatının döyüşçüləri Əfqanıstanın mərkəzi hissəsində yerləşən Qəzni şəhəri istiqamətində hücuma başlayıb.

Taliblərin bəyanatında onların bir neçə istiqamətdən eyni adlı vilayətin administrativ mərkəzinə daxil olmağa çalışdığı bildirilir.

Hazırda hökumət qüvvələri və "Taliban" arasında gedən şiddətli döyüşlər səbəbindən Kabil-Qəzni avtomobil magistralı bağlanıb. Əyalət şurasının nümayəndəsi Həmidullah Navrozi telekanala müsahibəsində deyib ki, Əfqanıstan ordusu kömək göndərməsə, Qəzni şəhəri "Taliban" hərəkatının nəzarətinə keçəcək.

Qeyd edək ki, 2014-cü ildə ABŞ hərbi kontingenti Əfqanıstanı tərk etdikdən sonra ölkənin cənub rayonlarının bir çoxu "Taliban" hərəkatının nəzarətinə keçib. Son zamanlar bəzi kənd rayonlarında üstünlüyə yiyələnən yaraqlılar böyük şəhərlər istiqamətində də hücumlarını davam etdirirlər. Həmçinin regionda İŞİD qruplaşması da aktiv fəaliyyət göstərir.

**AZƏRTAC-ın materialları əsasında**

# Kursantlar tarixi-mədəni abidələrdə ekskursiyada olublar



Əlahiddə Ümumqoşun Orduda qoşun təcrübəsi keçən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları Naxçıvan Muxtar Respublikasının gəzməli-görməli, tarixi-mədəni yerlərində və muzeylərində olublar. Kursantlar Heydər Əliyev Muzeyini, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatun və Açıq Səma Altında Muzey Komplekslərini, Xatirə Muzeyini, Naxçıvanqala Tarix Memarlıq Muzey Kompleksini, Dövlət Bayrağı Muzeyini, Duzdağ Fizioterapiya Mərkəzini ziyarət edərək zəngin təəssüratlar əldə ediblər. Həmçinin, rayon mərkəzlərindəki tarix-diyarşünaslıq muzeyləri, eləcə də tarixi abidələr ziyarət edilib.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin kursantları Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən hərbi hissə və bölmələrində şəxsi heyətin sosial-məişət şəraiti, səngər və mövqelərdə aparılan döyüş növbətçiliyi ilə yaxından tanış olublar.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

*Hər şəkil bir anın tarixidi. Bu şəkil də tarixdi. Azərbaycan əsgərinin hərbi xidmətinin bir anı nələr deyir?!*

*Ovqat*

# "Torpaqlarımızı işğaldan azad edəcəyik!"

"Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qürurla dediyi bu kəlam hərbçilərimizin də, ictimaiyyətin də milli ruhunun ifadəsidir; bu ordu 2016-cı ilin aprelində böyük zəfər qazandı. Bu ordu Günnüt qələbəsini tarixləşdirdi. Bu ordu Ali Baş Komandanının əmriylə torpaqlarımızı işğaldan azad etməyə qadirdir. İyunun 26-da Bakıda keçirilən parad da bu əminliyin təsdiqi oldu. Paradı izləyənlər o qüruru indi də yaşamaqdadır. Parada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin güvənlə, əminliklə dedikləri Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığında mühüm amil olmaqla tarixləşdi: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək".

Bu əminlik Azərbaycan əsgərinin döyüş əzmini, qələbə ruhunu daha da artırdı. Əsgərlər asudə vaxtlarında hərbi paradın möhtəşəmliyini, əminliklə deyilənləri xatırlayır, ölkə başçısının nəzərdə tutduğu paradda iştirak etməyi arzulayır. Həmin parad Böyük Qələbənin paradı olacaq. Əsgərlər Böyük Qələbəni qazananların sırasında olmaq niyyətindədi. Azərbaycan əsgərinin hərbi xidmət amalı həmin paradın tezləşməsi ilə bağlıdı. Əsgərlər bu haqda söhbətləşir, şübhəsiz. Vətəndən, torpaqdan, qələbədən danışırlar.



Son illərdə həyata keçirilən irimiqyaslı islahatlar, orduya diqqət və qayğı, yeni hərbi hissələrin inşa edilməsi şəxsi heyətin istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığına əsaslı təsir göstərib. Genişmiqyaslı təlimlər də təsdiqləyir ki, Azərbaycan Ordusu Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə qadirdir. Əsgərlər bu haqda söhbətləşir...

Əsgərlər Qarabağ müharibəsindən, şəhidlərdən, qəhrəmanlardan danışır; qəhrəmanlıq milli ruhumuzun ayrılmaz tərkib hissələrindəndir. Yusif Mirzəyevi, Şirin Mirzəyevi, Vəzir Orucovu, Mübariz İbrahimovu, Samid İmanovu, Raquf Orucovu, ..., Çingiz Qurbanovu,... xatırlayırlar. Bu xatırlama ehtiramdı. Bu xatırlama şəhidlərə, şəhidliyə iki əsgərin timsalında Azərbaycan əsgərinin ehtiramıdı. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının səviyyəsi həm də belə xatırlamalarla bağlıdı...

Azərbaycan əsgəri yüksək döyüş əzmiylə, dönməz qələbə ruhuyla xidmət edir. Əsgərlər "Torpaqlarımızı işğaldan azad edəcəyik" inamıyla söhbətləşir...

**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# ZTR-82A zirehli döyüş maşını



Zirehli döyüş maşını ZTR-82A 2009-cu ildə "Arzamas" maşınqayırma zavodunda hazırlanıb. 2010-cu ildə sınaqları keçirildikdən sonra - 2013-cü ildə ordunun silahlanmasına daxil edilib.

Maşında 8 silindirli, V şəkilli dördtaktlı KamAZ - 740-14-300 300 at gücündə dizel mühərriki quraşdırılıb. Döyüş maşınının silahlanmasına 14,5 mm-lik KPVT pulemyotu və sürətlə atəş açan 30 mm-lik 2A72 topu, 7,62 mm-lik PKTM pulemyotu daxildir. ZTR-80 döyüş maşınından fərqli olaraq onun yaşarlığı, keçidliyi və istismarı çox yüksək səviyyədədir. Transportyorun gövdəsi zirehlənib, kondisionerlə təchiz edilib. Operatorun yeri qüllədə quraşdırılıb, oturacaqlar mina zərbəsindən qorunmaq üçün möhkəm bərkidilib. Maşın müasir yanğınsöndürmə sistemi ilə də təchiz olunub. Zirehli ZTR-82-nin bir çox modernləşdirilmiş versiyaları da mövcuddur. Onlar ZTR-82A, ZTR-82AM, ZTR-82V, ZTR-87-dir. ZTR-82 döyüş maşınının bazası əsasında Tayfun-M diversiya əleyhinə maşın hazırlanıb. ZTR-82A zirehli transportyorunun çəkisi 15,4 ton, heyəti 3 nəfərdi. Transportyor yeddi desant daşımaq imkanına malikdir. Bütün gün ərzində fəaliyyət göstərən TKN-4QA nişangahı ilə təchiz edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Qadın voleybolçulardan ibarət Azərbaycan millisi Xorvatiya yığmasına qalib gəlib



Qadın voleybolçulardan ibarət Azərbaycan yığması Sloveniyada hazırlıqları davam etdirir.

Komandamız təlim-məşq toplanışı çərçivəsində Xorvatiya millisi ilə yoldaşlıq görüşü keçirib. Faiq Qarayevin yetirmələri rəqibinə hər üç setdə qalib gəliblər - 3:0 (25:14, 25:19, 25:16).

Qeyd edək ki, millimiz bu il sentyabrın 29-dan oktyabrın 20-dək Yaponiyada keçiriləcək voleybol üzrə dünya çempionatına hazırlaşır.

## Ağdamın "Qarabağ" komandasının Topaz Premyer Liqasında "Zirə" klubu ilə oyunu təxirə salınıb

Azərbaycanı UEFA Çempionlar Liqasında təmsil edən Ağdamın "Qarabağ" futbol klubu Peşəkar Futbol Liqasına müraciət edib.

Peşəkar Futbol Liqasından bildiriblər ki, "Qarabağ" komandası Belarusun BATE (Borisov) klubu ilə keçiriləcək cavab oyununa daha yaxşı hazırlaşmaq üçün futbol üzrə Topaz Premyer Liqasının 2018-2019-cu illər mövsümünün birinci turunda keçirilməli olan "Zirə" ilə görüşün təxirə salınmasını xahiş edib.

"Qarabağ"ın qitənin ən nüfuzlu klub turnirində çıxışını nəzərə alan Peşəkar Futbol Liqası birinci turun təqvimində dəyişiklik edib və Topaz Premyer Liqasının ilk turunun "Qarabağ" - "Zirə" matçı avqustun 10-dan sentyabrın 26-na keçirilib.

Qeyd edək ki, "Qarabağ" - "Zirə" qarşılaşması təxirə salındığı üçün turun açılış oyunu avqustun 11-də "Dalğa Arena"da "Sumqayıt" və "Neftçi" komandaları arasında olacaq.

## Azərbaycan şahmatçıları Beynəlxalq Şahmat Festivalının mükafatları uğrunda mübarizə aparırlar

Əbu-Dabidə 25-ci Beynəlxalq Şahmat Festivalının baş turnirində 158 şahmatçı, o cümlədən 50-dən çox qrossmeyster iştirak edir.

Bu turnirdə Azərbaycanı beynəlxalq dərəcəli usta Günay Məmmədzadə və FİDE ustası Rəvan Əliyev təmsil edirlər.

İlk iki turda 20 iştirakçının hər biri, o cümlədən Günay Məmmədzadə iki qələbə qazanıb. O, qadın şahmatçılar arasında liderdir. Rəvan Əliyevin aktivində 1,5 xal var.

"B" qrupunda FİDE reytinqi 2200-dən çox olmayan 231 şahmatçı mübarizə aparır. Bu turnirdə 16 şahmatçı dalbadal üç qələbə qazanıb, 22 şahmatçı, o cümlədən Fərid Mustafayev onlardan yarım xal geri qalır.

Yarışlar İsveçrə sistemi üzrə keçirilir və 9 turdan ibarətdir. Qaliblərin adları avqustun 15-də açıqlanacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Polkovnik Həşimov Teymur Qulamhüseyn oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 522
Nüsxə 3525